Kredo 2019.- 9 oktyabr.- S.16.

# "Akademik Məmməd Cəfər Cəfərov - Ədəbiyyat nəzəriyyəçisi" kitabı işıq üzü görüb




AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Akademik Məmməd Cəfər Cəfərov - Ədəbiyyat nəzəriyyəçisi" kitabı nəşr edilib. Kitab Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2019-cu il tarixli "Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən çap olunub. "Elm və təhsil" nəşriy-yatında işıq üzü görmüş kitabın elmi redaktoru və ön sözünün müəllifi AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir. "Böyük ədəbiyyatşünaslığın ünvanı: akademik Məmməd Cəfər Cəfərov" adlı irihəcmli ön sözdə ədəbiyyat nəzəriyyəsi elmi məktəbinin yaradıcısı, "baş cavidşünas", "Füzuli düşünür" silsiləsinin müəllifi, ədəbiyyat tarixçiliyi elminin inkişafında xidmətləri olan akademik Məmməd Cəfər Cəfərovun bütün universallığı hərtərəfli şəkildə tədqiq edilib.

Kollektiv elmi-yaradıcılıq məhsulu olan 306 səhifəlik fundamental "Akademik Məmməd Cəfər Cəfərov - Ədəbiyyat nəzəriyyəçisi" kitabının tərtibçisi professor Tahirə Məmməddir. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilən tədqiqatlar əsasında hazırlanan bu kollektiv monoqrafiyada Akademik Məmməd Cəfər Cəfərovun yaradıcılığının nəzəri parametrləri, əsasını qoyduğu elmi konsepsiyalar və onların müasir elmi fikir üçün əhəmiyyəti araşdırılıb.

Sanballı tədqiqlərdən ibarət kitabda Tahirə Məmməd, Cavanşir Yusifli, Məhəmmədəli Mustafayev, Pərvanə İsayeva, Aqşin Dadaşzadə, Maral Yaqubova, Aslan Salmanov, Simuzər İsmayılova, Aysel Qurbanova, Jalə Qurbanqızı, Şəfa Əliyeva kimi müəlliflərin tədqiqatları yer alıb.

*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, İctimaiyyətlə əlaqələr şöbəsi*